Teatrımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var. Milli teatr bu gün də, gələcəkdə də yaşayacaqdır...

Heydər Əliyev



# Standartlara uyğun səviyyədə

**Respublikada fəaliyyət göstərən 26 dövlət teatrının və bu şəbəkəyə daxil olan digər qurumların səmərəli fəaliyyətini təmin etmək məqsədilə dövlət onlara hər cür qayğı göstərir. Əlbəttə, teatrların fəaliyyətini dünya standartlarına uyğun şəkildə təmin etmək üçün zamanın tələblərindən asılı olaraq müxtəlif sərəncamlar imzalanır, proqramlar həyata keçirilir.Dövlət başçısı İlham Əliyev tərəfindən "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalanmışdır.**

Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunması, milli-mənəvi dəyərlərin təbliği və dünya mədəniyyətinə inteqrasiyasını təmin etmək, milli teatr sənətinin davamlı inkişafını dəstəkləmək məqsədilə dövlət proqramı təsdiqlənmişdir.

Proqramda mövcud vəziyyətə uyğun olaraq Azərbaycan teatrının maddi-texniki bazasının möhkəmləndirilməsi, yaradıcılıq potensialının inkişaf etdirilməsi, habelə teatr təhsili sisteminin yaxşılaşdırılması məqsədilə onillik müddətinə bir sıra vacib tədbirlərin hazırlanıb həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Proqramın təsdiqində məqsəd ondan ibarətdir ki, teatr siyasətinin formalaşması və teatr prosesində idarəetmənin optimallaşdırılması üçün bu sahədə islahatlar aparılsın, hər bir teatr binası standartlara uyğun səviyyədə təmir olunsun, onların maddi-texniki bazası möhkəmləndirilsin. Yeni teatr siyasətinin doğru-düzgün həyata keçirilməsi həm də mədəniyyətin hərtərəfli təbliği ilə bağlıdır. Eləcə də ümumbəşəri və milli-mənəvi dəyərlərin qorunması dünya mədəniyyətinə inteqrasiyanı təmin etməklə əlaqəli şəkildə həyata keçirilərsə, bu, ümumilikdə sənətin inkişafına səbəb olar.

Bu səbəbdən də həm maliyyə və informasiya resurslarından səmərəli istifadə edilməli, həm də hər bir teatrın repertuarı günün tələblərinə uyğun formalaşmalıdır.

Bütün məqsəd və vəzifələrin həyata keçirilməsi nəticəsində bu sahədə bir sıra nailiyyətlərin əldə olunması şəksizdir. Ən başlıcası isə, milli teatr sənəti həm qorunub saxlanılacaq, həm də inkişaf etdiriləcəkdir. Şəbəkənin müasir tələblərə uyğun qurulması əhalinin teatra olan tələbatının ödənilməsi üçün də şərait yaradacaqdır. Qədim teatrı həm də gəncləşdirmək gərəkdir. Bunun üçün istedadlı gənclərin teatra cəlb olunmasına önəm verilməlidir. Nəticədə

Azərbaycan teatr sənətinin beynəlxalq aləmdə layiqincə təmsili və təbliği baş tutacaqdır. Bunun üçün isə on il ərzində çox mühüm tədbirlər həyata keçiriləcəkdir.

Dövlət proqramının uğurlu icrası üçün nəzərdə tutulan tədbirlər planı rəngarəngdir. Təqribən 22-dən artıq mühüm tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Öncə teatr sahəsində idarəetmənin və maliyyə, iqtisadi mexanizmlərin təkmilləşdirilməsi üçün islahatların aparılması vacibdir.

On il ərzində respublika ərazisində fəaliyyət göstərən bütün dövlət teatrlarının maddi-texniki bazası möhkəmləndiriləcək, eləcə də bir sıra bölgələrdə yerləşən dövlət teatrlarının binaları təmir-bərpa ediləcək, yenidənqurma işləri aparılacaqdır. Təkcə təmir deyil, həm də bir sıra teatrlarda fəaliyyət göstərən orkestrlər üçün musiqi alətlərinin alınması da nəzərdə tutulub. Bu tədbirlər həm də o zaman həyata keçəcəkdir ki, teatr sahəsində təhsilin təkmilləşdirilməsi yolunda da uğurlu addımlar atılsın.

Biz həmişə fəxrlə deyirik ki, Şərqdə ilk teatr, ilk opera Azərbaycanda yaradılıb. Qazanılmış bu ənənələri qoruyub inkişaf etdirmək üçün müasir dövrdə hər bir mədəniyyət müəssisəsi dünya standartları səviyyəsində fəaliyyət göstərməlidir.

Əgər ötən əsrin əvvəllərində insanları maarifləndirmək naminə heç bir maliyyə təminatı olmayan, əksinə, nadan qüvvələr tərəfindən təzyiqə, təqibə məruz qalan bir dövrdə ağıllı və savadlı insanlar bu zülmətin içində çıxış yolu taparaq teatr yarada bilirdilərsə, indi hər cür şərait və köməyin olduğu zamanda lazımdır ki, dünya arenasına çıxmaq üçün həm də xarici ölkələrdə kadr hazırlığı müştərək layihələr əsasında həyata keçirilsin.

Elə proqramda da belə bir bənd var: "Müvafiq proqram, saziş və müqavilələr çərçivəsində teatr sənəti ilə bağlı xarici ölkələrdə təhsilalma və stajkeçmələrin təşkili". Maraqlıdır ki, bu tədbirin on il ərzində müntəzəm davam etdirilməsi nəzərdə tutulur. Elə tədbirlər var ki, onlar iki ildən bir həyata keçirilməlidir. Məsələn, müasir dövrün teatr problemlərinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransların təşkili. İldə bir dəfə də nəzərdə tutulan tədbirlər var.

Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi altında həyata vəsiqə alacaq belə tədbirlərdən biri 2011-ci il üçün nəzərdə tutulub: Beynəlxalq Kukla Teatrları Assosiasiyasının iştirakı ilə "Kukla teatrı həftəsi"nin keçirilməsi, dövlət proqramına əsasən, on il ərzində xarici ölkələrin tanınmış teatr kollektivlərinin Azərbaycana dəvət olunması planlaşdırılıb. Eləcə də, paytaxtda tanınmış teatr xadimlərinin iştirakı ilə seminarların təşkil edilməsi bu sahədə müəyyən nailiyyətlərin qazanılmasına səbəb olacaqdır.

Dövlət proqramında təkcə paytaxtda deyil, Naxçıvan Muxtar Respublikasında, həmçinin digər bölgələrdə, o cümlədən qaçqın və məcburi köçkünlük şəraitində fəaliyyət göstərən dövlət teatrlarına da hər cür zəruri qayğının göstərilməsi nəzərdə tutulub. Əlbəttə, ilk növbədə, bu mədəniyyət ocaqlarında maddi-texniki bazanın möhkəmləndirilməsi ön plana çəkiləcəkdir. Çünki teatr sahəsində tədbirlərin uğurlu keçməsi üçün maddi-texniki bazanın günün tələbləri səviyyəsində qurulması çox vacibdir.

Azərbaycan teatr sənətinin yaxın on il ərzində inkişaf istiqamətlərini müəyyənləşdirən bu dövlət proqramı milli-mədəni sərvətə çevrilmiş teatrımızın zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunmasına, inkişaf etməsinə, dünya mədəniyyətinə qovuşmasına təkan verəcəkdir. Eləcə də dövlətlərarası mədəni əməkdaşlıq haqqında ikitərəfli sazişlərə uyğun olaraq respublika teatrları xarici ölkələrdə keçirilən müxtəlif festivallardakı uğurlu çıxışlarını yenə də davam etdirəcəklər.

Ölkə Prezidentinin 2007-ci ildə Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında imzaladığı sərəncamda milli mədəniyyətimizin inkişafında böyük rol oynayan teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq potensialının yaxşılaşdırılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

İndi dövlət proqramında Azərbaycan teatrının daha da yüksəlişi üçün on il müddətində həyata keçiriləcək çox mühüm tədbirlər qeyd edilmişdir. Bu vəzifələrin həlli istiqamətində nəzərdə tutulan hər bir tədbir məqsədyönlüdür və mütərəqqi ideyalarla həmahəngdir.

***Məqsəd budur ki, bütün sahələrdə olduğu kimi, teatr aləmində də son dərəcə güclü inkişafa nail olunsun, mədəniyyət ocaqlarının salonları tamaşaçı sarıdan korluq çəkməsin, təqdim edilən əsərlər müasir dünyagörüşünü əks etdirsin, sanballı, mükəmməl təsir bağışlasın. Yəni, Azərbaycan teatrı gələcəkdə istənilən tamaşası ilə dünya səhnəsinə çıxa bilsin. Bugünkü inteqrasiya bunu tələb edir...***

**• F.XƏLİLZADƏ**